2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaş Hikmət Fehruz oğlu Kərimovun 30 dekabr 2009-cu il tarixli 328 saylı, vətəndaş Altay Mürşüdov və digərlərinin 30 dekabr 2009-cu il tarixli 329 saylı, bələdiyyə üzvlüyünə namizəd Çingiz Rəşid oğlu Abbasovun 30 dekabr 2009-cu il tarixli 330 saylı, vətəndaş Şahbala Əlhüseyn oğlu Kərimovun 30 dekabr 2009-cu il tarixli 331 saylı, vətəndaş İmran Fərasət oğlu İsrafilovun 30 dekabr 2009-cu il tarixli 332 saylı, bələdiyyə üzvlüyünə namizəd Qafar Hüseynalı oğlu Dostiyevin 30 dekabr 2009-cu il tarixli 333 saylı, vətəndaş Vidadi Eyyub oğlu Həsənov və digərlərinin 30 dekabr 2009-cu il tarixli 334 saylı, vətəndaş Ceyran Aslanovna Murtuzəliyeva və digərlərinin 30 dekabr 2009-cu il tarixli 335 saylı, bələdiyyə üzvlüyünə namizəd Vaqif Şirindil oğlu Abdullayev və digərlərinin 30 dekabr 2009-cu il tarixli 336 saylı, vətəndaş Rahim Məhərrəm oğlu Hüseynov və digərlərinin 30 dekabr 2009-cu il tarixli 337 saylı, vətəndaş Zakir Abuşovun 30 dekabr 2009-cu il tarixli 338 saylı, vətəndaş Mehman İsmayıl oğlu Mehdiyevin 30 dekabr 2009-cu il tarixli 339 saylı, vətəndaş Asəf Maarif oğlu Mehdiyevin 30 dekabr 2009-cu il tarixli 340 saylı, vətəndaş Araz Məhəmməd oğlu Həsənovun 30 dekabr 2009-cu il tarixli 341 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Hikmət Fehruz oğlu Kərimov 2009-cu il dekabrın 30-da, vətəndaş Altay Mürşüdov və digərləri 2009-cu il dekabrın 30-da, bələdiyyə üzvlüyünə namizəd Çingiz Rəşid oğlu Abbasov 2009-cu il dekabrın 30-da, vətəndaş Şahbala Əlhüseyn oğlu Kərimov 2009-cu il dekabrın 30-da, vətəndaş İmran Fərasət oğlu İsrafilov 2009-cu il dekabrın 30-da, bələdiyyə üzvlüyünə namizəd Qafar Hüseynalı oğlu Dostiyev 2009-cu il dekabrın 30-da, vətəndaş Vidadi Eyyub oğlu Həsənov və digərləri 2009-cu il dekabrın 30-da**,** vətəndaş Ceyran Aslanovna Murtuzəliyeva və digərləri 2009-cu il dekabrın 30-da, bələdiyyə üzvlüyünə namizəd Vaqif Şirindil oğlu Abdullayev və digərləri 2009-cu il dekabrın 30-da, vətəndaş Rahim Məhərrəm oğlu Hüseynov və digərləri 2009-cu il dekabrın 30-da, vətəndaş Zakir Abuşov 2009-cu il dekabrın 30-da, vətəndaş Mehman İsmayıl oğlu Mehdiyev 2009-cu il dekabrın 30-da, vətəndaş Asəf Maarif oğlu Mehdiyev 2009-cu il dekabrın 30-da, vətəndaş Araz Məhəmməd oğlu Həsənov 2009-cu il dekabrın 30-da bir sıra seçki dairələrinin ərazilərində seçki prosesi zamanı bəzi qanun pozuntularının baş verməsini bildirmiş və qanunla müəyyən edilmiş tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən nəzərdən keçirilərək bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciətlər nəzərdən keçirilmiş və onların verilmə tarixindən müəyyən edilmişdir ki, şikayətlər seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvləri şikayətlərin geri qaytarılması barədə rəylər vermişlər.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin şikayəti ilkin olaraq nəzərdən keçirir. Bu zaman ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar

etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Ona görə də iddia edilən qanun pozuntularından qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə şikayət verilmədiyindən, müraciətlər mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaş Hikmət Fehruz oğlu Kərimovun 30 dekabr 2009-cu il tarixli 328 saylı, vətəndaş Altay Mürşüdov və digərlərinin 30 dekabr 2009-cu il tarixli 329 saylı, bələdiyyə üzvlüyünə namizəd Çingiz Rəşid oğlu Abbasovun 30 dekabr 2009-cu il tarixli 330 saylı, vətəndaş Şahbala Əlhüseyn oğlu Kərimovun 30 dekabr 2009-cu il tarixli 331 saylı, vətəndaş İmran Fərasət oğlu İsrafilovun 30 dekabr 2009-cu il tarixli 332 saylı, bələdiyyə üzvlüyünə namizəd Qafar Hüseynalı oğlu Dostiyevin 30 dekabr 2009-cu il tarixli 333 saylı, vətəndaş Vidadi Eyyub oğlu Həsənov və digərlərinin 30 dekabr 2009-cu il tarixli 334 saylı, vətəndaş Ceyran Aslanovna Murtuzəliyeva və digərlərinin 30 dekabr 2009-cu il tarixli 335 saylı, bələdiyyə üzvlüyünə namizəd Vaqif Şirindil oğlu Abdullayev və digərlərinin 30 dekabr 2009-cu il tarixli 336 saylı, vətəndaş Rahim Məhərrəm oğlu Hüseynov və digərlərinin 30 dekabr 2009-cu il tarixli 337 saylı, vətəndaş Zakir Abuşovun 30 dekabr 2009-cu il tarixli 338 saylı, vətəndaş Mehman İsmayıl oğlu Mehdiyevin 30 dekabr 2009-cu il tarixli 339 saylı, vətəndaş Asəf Maarif oğlu Mehdiyevin 30 dekabr 2009-cu il tarixli 340 saylı, vətəndaş Araz Məhəmməd oğlu Həsənovun 30 dekabr 2009-cu il tarixli 341 saylı müraciətləri qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürüldüyündən ərizəçilərə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr	Məzahir Pənahov
Katib	Natiq Məmmədov
Üzvlər	Fuad Cavadov
	Validə Kazımova
	Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Almas Qəhramanlı

Oktay Hümbətli